# *Laçın-Xankəndi yolu:* Ekoaksiya 46 gündür davam edir

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası artıq 46 gündür davam edir.






AZƏRTAC xəbər verir ki, havanın şaxtalı olmasına baxmayaraq, aksiya iştirakçılarında yüksək əhvali-ruhiyyə və fəallıq müşahidə olunur.

Ekofəallar hər gün olduğu kimi, səhəri Dövlət himninin səsləndirilməsi ilə açıb, vətənpərvər ruhda mahnılar ifa ediblər. Aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan milləti qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!" kimi şüarlar səsləndirirlər. Ekoaksiyanın keçirildiyi ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıqdır.

Azərbaycan.- 2023.- 26 yanvar.- S.5.